# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

17 yanvar 2019-cu il

Cümə axşamı

№ 2 (3417)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2018-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASI KEÇİRİLİB



Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclasda giriş nitqində bildirib ki, 2018-ci il ölkəmiz üçün uğurlu olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşıya qoyulan bütün vəzifələr icra olunmuş, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir. Keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. ***Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək.***

***Qeyd olunub ki, ölkəmizdə, həm ictimai-siyasi, həm iqtisadi-sosial məsələlərlə bağlı vəziyyət sabitdir.*** Keçən il xarici siyasət sahəsində də uğurlu olub. Ölkə rəhbəri keçən il xarici ölkələrə 16 səfər edib, Azərbaycana 16 dövlət və hökumət başçısı gəlib. Bu, bir daha onu göstərir ki, xarici siyasətimiz çoxşaxəlidir və bizimlə əməkdaşlıq edən ölkələrin sayı gündən-günə artır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan cənab Prezident bir daha bəyan edib ki, mövqeyimiz dəyişməz olaraq qalır. Bu məsələ yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır.

Keçən il Ermənistanda böyük dəyişikliklər baş verib. İyirmi il hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş kriminal xunta rejimi süqut edib. Ermənistanda iyirmi il ərzində kriminal, qaniçən xunta rejimi hökm sürür. Azərbaycan Prezidenti İlham Əliyev daha sonra deyib:

-Mən dəfələrlə bunu bildirmişəm, bir daha demək istəyirəm ki, Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol var, o da Azərbaycan ilə münasibətləri normallaşdırmaqdır. Biz buna hazırıq. Ancaq əlbəttə ki, buna nail olmaq üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır.

Eyni zamanda, biz keçən il əlbəttə ki, hərbi potensialımıza böyük diqqət göstərmişik və bu sahədə böyük nailiyyətlər var. Bizim ordumuzun döyüş qabiliyyəti artır və Naxçıvan əməliyyatı bunu əyani şəkildə sübut edib. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində biz 11 min hektar torpağa tam nəzarət edirik. Bu, çox uğurlu əməliyyat idi.

Müharibədən əziyyət çəkən soydaşlarımızın problemləri də keçən il uğurla həll olunub. Bu məsələ ilə bağlı çox ciddi addımlar atılıb. Keçən il 5800-dən çox köçkün ailəsinə yeni evlər, mənzillər verilibdir. Bu, son illər ərzində rekord göstəricidir. Bununla bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 620-dən çox mənzil verilib...

Əlbəttə, bütün bu işləri görmək üçün iqtisadi güc olmalıdır və biz bunu yaradırıq. Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək. Keçən il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur...

***Diqqətə çatdırılıb ki, iqtisadi artım keçən il Azərbaycanda 1,4 faiz olub. Ondan daha yaxşı göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz artıb, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artıb. İnflyasiya cəmi 2,3 faizdir, əhalinin pul gəlirləri 9,2 faiz artıb. Əhalinin gəlirləri inflyasiyanı üstələyir. Kənd təsərrüfatı 4,6 faiz artıb. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir.***

***Keçən il valyuta ehtiyatlarımız artıb. Bu gün ölkəmizin valyuta ehtiyatları 45 milyard dollara bərabərdir. Xarici borc 22,8 faizdən 19 faizə düşüb. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 19 faizini təşkil edir. Qarşıya vəzifə qoyulub ki, biz bu borcu yaxın illərdə daha da azaldaq. Keçən il 118 min daimi iş yeri yaradılıb.***

Müşavirədə dövlət başçımız vurğulayıb ki, dünyanın istənilən ölkəsi bu göstəriciləri böyük qəhrəmanlıq kimi qəbul edə bilər, bizim üçün isə bu, adi haldır. Çünki iqtisadi siyasətimiz düşünülmüş siyasətdir. Ümumiyyətlə, bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını tam əks etdirir, ona tam uyğundur. Məhz buna görə Azərbaycan xalqı bu siyasəti dəstəkləyir.

Sonra Maliyyə naziri Samir Şərifov, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söyləyib. Bildirilib ki, 2019-cu il də ölkəmiz üçün uğurlu il olacaq.

# PREZİDENT İLHAM ƏLİYEV QARADAĞ RAYONUNUN QOBUSTAN QƏSƏBƏSİNDƏ YENİ İNŞA OLUNAN XƏSTƏXANANIN AÇILIŞINDA İŞTİRAK EDİB

Yanvarın 14-də Bakının Qaradağ rayonunun Qobustan qəsəbəsində Səhiyyə Nazirliyinin yeni inşa olunan 17 saylı birləşmiş şəhər xəstəxanasının açılışı olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov və 17 saylı birləşmiş şəhər xəstəxanasının baş həkimi, Əməkdar həkim Elmira Rəfailova görülən işlər barədə məlumat veriblər.

Dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsib.

Qeyd edilib ki, Qobustanda xəstəxana 1955-ci ildən fəaliyyətə başlayıb. Xəstəxana binalarının yararsız vəziyyətdə olması nəzərə alınaraq Prezident İlham Əliyevin 2011-ci il 6 aprel tarixli sərəncamı ilə Qobustan qəsəbəsindəki 17 nömrəli birləşmiş şəhər xəstəxanasının yenidən qurulması üçün maliyyə vəsaiti ayrılıb. Aparılan inşaat işləri zamanı köhnə xəstəxananın yerləşdiyi binalar tam sökülüb və onların yerində müasir standartlara cavab verən yeni xəstəxana binası inşa edilib.

Xəstəxana binasında ümumi qəbul, funksional diaqnostika, pediatriya, mama-ginekologiya, travmatologiya, cərrahiyyə və doğum şöbələri, rentgen, terapevt, EKQ, otorinolarinqoloq, oftalmoloq, stomatoloq kabinetləri, əczaxana yaradılıb.

Sonra dövlətimizin başçısı tibb müəssisəsinin kollektivi ilə görüşüb.

Sonda xatirə şəkli çəkdirilib.

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 10-da Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş "Tufan" tipli sərhəd gözətçi gəmisi, döyüş texnikası və silah-sursatla tanış olub.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də ölkəmizdə səfərdə olan Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.**

***Yanvarın 16-da Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş "SOCAR karbamid" zavodu istifadəyə verilib.***

***Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.***

**Dövlətimizin başçısı yanvarın 10-da Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri yanvarın 11-də Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvan Muxtar Respublikasının bir sıra birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 14-də Ümumdünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul edib.***

❖❖❖❖❖

**Dövlətimizin rəhbəri yanvarın 14-də "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri yanvarın 14-də Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.***

❖❖❖❖❖

**Yanvarın 14-də Azərbaycan Prezidenti İlham Əliyev aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı yanvarın 15-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri yanvarın 15-də Arif Nizam oğlu Alışanovun "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 15-də Gürsel Qüdrət oğlu İsmayılzadənin ölkəmizin Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 16-da İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**




## TARİXƏ DÖNƏN GÜN

Yaranışdan Bakı Xəzərdən doğan Günəşlə ayılırdısa, 1990-cı ilin 20 Yanvar səhəri günahsız qanlarla suvarılan vahiməli gecədən doğuldu. Yaddaşlarda dəhşət, vəhşət kimi qərar tutan 20 Yanvar həm də azadlıq eşqi ilə yaşayan insanların şərəf, ləyaqət mücəssəməsi kimi tarixə qovuşdu...

*Bax səh.2.*

## ÖLMƏZLİYƏ GEDƏN YOL

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş, 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən xalqa qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi dəhşətli faciəyə gətirib çıxardı. Həmin günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd vətən oğulları Şəhidlik zirvəsinə ucaldılar...

*Bax səh.3.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Yanvarın 12-də Daxili İşlər Nazirliyində Daxili Qoşunların 2018-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş nəziryanı əməliyyat müşavirəsi keçirilib.**

**Müşavirəni giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Ramil Usubov ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin 2018-ci ildə əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatın, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.**



Nazir Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıraraq şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib.

Qeyd olunub ki, görülmüş işlər dövlətimizin başçısı tərəfindən layiqincə qiymətləndirilir. Bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini, heç bir halda arxayınlaşmamağı tələb edir.

Daxili işlər nazirinin müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Daxili Qoşunlar komandanı ötən il normativ-hüquqi bazanın təkmilləşdirilməsinin, təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılmasının, maddi-tədris bazasının inkişaf etdirilməsinin, şəxsi heyətin nəzəri biliklərinin artırılmasının, onlara yüksək peşəkar praktiki vərdişlərin aşılanmasının, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin döyüş təliminin əsas vəzifələri olaraq həyata keçirildiyini diqqətə çatdırıb.

O da qeyd olunub ki, qanunçuluğun, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun riayət olunması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq qrup halında nizamnamədən kənar münasibətə yol verilməyib.

Ötən il şəxsi heyətin kazarma-məişət şəraitinin yaxşılaşdırılması və müasir standartlara uyğunlaşdırılması, hərbi hissə və bölmələrin silah və xüsusi texnika ilə təchizatı istiqamətində nəzərdə tutulan işlər uğurla icra edilib.

Müşavirəyə yekun vuran daxili işlər naziri ötən hesabat ilində şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.

O bildirib ki, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi, o cümlədən şəxsi heyətin Vətənə və hərbi anda sədaqət, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması istiqamətində zəruri tədbirlər davam etdirilməlidir.

Nazir bu il Daxili Qoşunlarda bütün təşkilati tədbirlərin müəyyən edilmiş vaxtda keçirilməsinin, bu zaman qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqların layiqincə yerinə yetirilməsinin əhəmiyyətini vurğulayıb.

General-polkovnik Ramil Usubov hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasının, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsinin, ekstremal hallar da daxil olmaqla, onların polis əməkdaşları ilə bərabər istənilən əmr və göstərişlərin ən yüksək səviyyədə icrasına hər zaman hazır olmalarını tələb edib.

Nazir Daxili Qoşunların şəxsi heyəti adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevi əmin edib ki, hərbi qulluqçular qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklər.

*12 yanvar 2019-cu il*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Yanvarın 15-də Əlahiddə Çevik Polis Alayında 2018-ci il ərzində görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

**Tədbiri giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Ramil Usubov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında böyük əzmlə davam etdirildiyini, ölkəmizdə mövcud olan sabitlik və təhlükəsizlik şəraitinin daha da möhkəmləndiyini, ictimai asayişin ötən ildə də etibarlı qorunduğunu vurğulayıb, görülən işlərdə, əldə edilən müsbət nəticələrdə Əlahiddə Çevik Polis Alayının şəxsi heyətinin də böyük əməyi olduğunu diqqətə çatdırıb.**



Sonra alay komandirinin birinci müavini - Qərargah rəisi, polis polkovniki Elnur Kərimov hesabat dövründə görülmüş işlər və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib.

O, qeyd edib ki, ötən il nazirliyin aidiyyəti struktur qurumları və ərazi polis orqanları ilə qarşılıqlı əlaqədə alayın patrul bölüklərinin xidmət apardığı ərazilərdə kriminogen durum bütövlükdə nəzarətdə saxlanılıb, cinayətlərin və digər hüquqpozmaların aşkarlanması və qarşısının alınması üçün paytaxtın polis orqanları ilə birgə zəruri tədbirlər görülüb. Nəticədə post və marşrutlarda 32.081 nəfər, o cümlədən müxtəlif cinayətlər törətmiş 834, inzibati xətalara yol vermiş 31.247 şəxs saxlanılaraq barələrində qanunauyğun ölçülərin götürülməsi təmin edilib. Hüquqazidd əməllərə yol verdiyinə görə saxlanılanlardan 214-ü xuliqanlıq, 247-si oğurluq, 15-i soyğunçuluq, 52-i dələduzluq, 44-ü digər cinayətlər törətmiş şəxslər olub. Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində alayın şəxsi heyəti tərəfindən ümumilikdə 133 nəfər saxlanılıb. Bununla bərabər, xırda xuliqanlığa görə 1.298, avaralıq və dilənçiliyə görə 3.199, polisin qanuni tələbinə tabe olmadığına görə 668, qanunsuz küçə ticarəti ilə məşğul olduğuna görə 4.925, məişət səs-küyünə yol verən 888 nəfər müəyyən edilərək barələrində zəruri tədbirlər görülüb. Bütövlükdə, 2017-ci illə müqayisədə aşkarlanan cinayətlərin sayı 1,5, inzibati xətaların sayı isə 21,3 faiz çox olub.

Məruzə ətrafında çıxış edənlər görülən işlərin nəticələrindən, xidməti fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqlardan, onların qısa müddətdə aradan qaldırılması istiqamətində həyata keçiriləcək tədbirlərdən danışıblar.

Müşavirəyə yekun vuran general-polkovnik Ramil Usubov şəxsi heyətin ötənilki fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, bu dövrdə xidməti-döyüş fəaliyyətində əldə olunmuş müsbət nəticələrin qorunub saxlanılmasının əhəmiyyətini qeyd edib, tapşırıq və tövsiyələrini verib.

Kütləvi tədbirlər zamanı təhlükəsizliyin təmin edilməsində alayın böyük təcrübə qazandığını deyən nazir cari ildə "2019 Formula-1 Azərbaycan Qran Pri"si, futbol üzrə UEFA Avropa Liqasının final görüşü, Avropa Gənclər Olimpiya Festivalı kimi beynəlxalq əhəmiyyətli idman tədbirlərinin keçiriləcəyi ilə əlaqədar qarşıya qoyulan vəzifələrin yüksək səviyyədə icra edilməsinin, qüvvə və vasitələrin tədbirlər ərəfəsində tam hazırlıq vəziyyətinə gətirilməsinin, həmçinin peşəkarlığın artırılması məqsədilə müvafiq təlim-məşqlərin keçirilməsinin əhəmiyyətini qeyd edib.

Xidməti vəzifələrin uğurla yerinə yetirilməsi üçün ölkə rəhbərliyi tərəfindən hər cür şəraitin yaradıldığını, şəxsi heyətin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu nəzərə çatdıran daxili işlər naziri Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevi əmin edib ki, Əlahiddə Çevik Polis Alayı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması üzrə vəzifələri, qarşıya qoyulan bütün tapşırıqları bundan sonra da əzmlə yerinə yetirəcək, göstərilən etimadı sədaqətli xidməti ilə doğruldacaqdır.

Müşavirənin sonunda ötən il xidməti vəzifələrin icrasında fərqlənmiş bir qrup əməkdaşın təltif olunması barədə daxili işlər nazirinin müvafiq əmrləri elan olunub və general-polkovnik Ramil Usubov mükafatları sahiblərinə təqdim edib.

*15 yanvar 2019-cu il*

# TARİXƏ DÖNƏN GÜN

**Yaranışdan Bakı Xəzərdən doğan Günəşlə ayılırdısa, 1990-cı ilin 20 Yanvar səhəri günahsız qanlarla suvarılan vahiməli gecədən doğuldu. Yaddaşlarda dəhşət, vəhşət kimi qərar tutan 20 Yanvar həm də azadlıq eşqi ilə yaşayan insanların şərəf, ləyaqət mücəssəməsi kimi tarixə qovuşdu.**

29 il əvvəlin arxasından boylanan qanlı yanvar günü Azərbaycan xalqının şanlı mübarizə tarixinin parlaq səhifələrindəndir. Həmin gün Azərbaycan təklənmişdi, soyuq şimalın odlu mühasirəsinə düşmüşdü. Dağlıq Qarabağda və sərhədyanı bölgələrdə dəhşətli cinayətlər, terrorlar törədən, həyasızcasına təcavüzkarlıq edən Ermənistana açıq-aşkar dəstək verən keçmiş imperiya rəhbərliyinə və onların yerli nümayəndələrinin yarıtmaz əməllərinə, vəzifə kürsüsünü qorumaq üçün xalqı güdaza verənlərə qarşı xalq öz etirazını, nifrətini bildirirdi. Bu qəzəbi nəyin bahasına olursa-olsun yatırmaq üçün keçmiş SSRİ rəhbərliyi və onun Bakıdakı vassalları əlbir idilər.

Əvvəlcə Naxçıvanda başlamış xalq hərəkatını yatırmaq üçün erməni-rus hərbi birləşmələri Sədərək rayonuna güclü hücumlar etdilər. Cəmi 2 il əvvəl Qərbi Azərbaycan ərazisindən 300 minə yaxın soydaşımızı dədə-baba torpaqlarından çıxarmağa nail olmuş tarixi düşmənlərimizin budəfəki niyyəti Sədərək və Şərur rayonlarını ələ keçirmək idi. Lakin Naxçıvanın igid müdafiəçilərinin fədakarlığı nəticəsində xeyli qurbanlar bahasına bu çirkin, məkrli planın qarşısı alındı.

Bakıda isə vəziyyət daha ağır idi. Sonradan məlum oldu ki, hadisələrdən 3 gün əvvəl paytaxta 21 min nəfərlik qoşun kontingenti gətirilibmiş. Faciə axşamı onların sayı 40 minə çatdırılıb. Ən dəhşətlisi isə o idi ki, silahlıların arasında Stavropol və Krasnodar vilayətindən ehtiyatdan çağırılmış erməni qatilləri çoxluq təşkil edirdilər.

DTK-nın antimilli qüvvələrinin təşkil etdiyi bu təxribat Azərbaycanı dünyadan təcrid etmək, həqiqət səsini batırmaq məqsədi güdürdü. Daha sonra hərb maşını hərəkətə gələrək dinc əhalini güllələbaran etməyə başladı. Heç nəyə, heç kimə məhəl qoyulmadı. Təcili yardım, yanğınsöndürən maşınları, sərnişin avtobusları gülləyə tutuldu.

Xalq meydanda təklənmişdi. İmperiyapərəst rəhbərlər qədər vəziyyətin böhran həddinə çatmasında maraqlı olan və ondan şəxsi ambisiyaları naminə yararlanmaq istəyən üzdəniraq "meydan bəyləri" də, əslində, xalqdan çoxçox uzaqda bu dəhşətləri seyr edirdilər.

Həmin vaxt şəhidlərə bütün xalq matəm saxladığı halda dövlət rəsmilərindən heç kim onların dəfnində iştirak etmədi.

Xalqın bu faciəli və dəhşətli anlarında o vaxtlar Moskvada yaşayan və təqiblərə məruz qalan dahi öndərimiz Heydər Əliyev öz ailə üzvləri ilə birlikdə Azərbaycan nümayəndəliyinə gələrək xalqımıza qarşı törədilən qanlı cinayətə etiraz səsini ucaltdı, qanlı cinayətin törədilməsində günahı olanları ittiham etdi. Həmin hadisələrə məhz ümummilli liderimizin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra obyektiv qiymət verildi və 20 Yanvar faciəsi hüquqa, demokratiyaya, əxlaqa zidd hərəkət, xalqımıza qarşı törədilmiş dövlət terroru kimi qiymətləndirildi.

20 Yanvar! O gecə qəlbimizə elə bir dağ çəkildi ki, o dağın sızıltısı tariximiz boyu davam edəcək...

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

# QAN YADDAŞIMIZ

**Tarixdir, amma o qədər də uzaq keçmiş deyil. 20 yanvar 1990-cı il. O soyuq qış gecəsində nələr yaşandı, nələr oldu. Bir millətin qəsdinə duruldu. Dinc əhaliyə divan tutuldu, nahaq qanlar töküldü…**

Sovet qoşunları tanklarla Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzib dağıtdılar, xüsusi təyinatlı hərbçilər hər yanı amansız atəşə tutdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə, eyvanlarında güllələrə tuş gəldilər.

Bu faciədə dinc əhali, polislər, hətta yaralılara yardım göstərməyə çalışan tibb işçiləri də güllə-borana məruz qaldılar. Həmin gecə daxili işlər orqanlarının 6 əməkdaşı Şəhid oldu.

**İlqar Əbülhəsənov.** Yasamal RPİ-nin polis kiçik serjantı idi. Uzun illər cinayət-axtarış aparatında işləmiş atası Yusif kişinin yoluyla gedirdi. Azərbaycan İqtisad Universitetində qiyabi oxuyurdu. Evdən işə qayıdarkən – saat 24.00 radələrində ona əl edən hərbiçinin işarəsilə maşını saxladı. Sənədini götürmək üçün əlini qoltuq cibinə apararkən yaxınlıqdakı iki əsgər avtomat silahdan ona atəş açdı.

O gecə Bakı qan ağlayırdı. Mərkəzi xəstəxanada şam işığında, sonrasa qəzet yandırmaqla 5 saat davam edən cərrahiyyə əməliyyatından sonra özünə gələndə ancaq bu sözləri dilinə gətirdi: "Buraxın, rahat ölüm…"

İlqar da əbədi ölməzliyə qovuşdu…

Səbail RPİ-nin əməkdaşı, polis kiçik serjantı, 1960-cı il təvəllüdlü, dörd bacının bircə qardaşı **Telman Bağırov** həmin gecə "Dostluq" kinoteatrının yaxınlığında əsgərlərin gülləsinə tuş oldu. İyirmi gündən sonra dünyaya bir körpəsi gəldi-şəhid qızı…

**Ədalət Camalov.** Polis serjantı idi. Kəlbəcər RPŞ-də çalışırdı. Üç övladı vardı. Onların gözləri sonsuzluğadək zillənib. Hələ də atanı axtarırlar…

Polis leytenantları **Valeri Boqdanov** və **Ağanəzər İsmayılov.** Hər ikisi cinayət-axtarış sahəsində xidmət edirdilər. Ağanəzər subay, Valerisa təzəcə ailə qurmuşdu.

Dan yeri söküləndə onlar tapşırıq dalınca getdilər. Maşın arxadan atəşə tutuldu. Ağanəzər başından, Valeri sinəsindən güllələndi. Maşında olan əməliyyat qrupunun rəhbəri, polis kapitanı **Oqtay Mirzəyev** də qolundu itirdi…

Əbədiyyətə qovuşdular. Ruhları göylərə qalxdı, yerə tökülən qanlar al qərənfilə çevrildi, xalqın qan yaddaşında əbədilik həkk olundu.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# ÖLMƏZLİYƏ GEDƏN YOL



**Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş, 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən xalqa qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi dəhşətli faciəyə gətirib çıxardı. Həmin günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd vətən oğulları Şəhidlik zirvəsinə ucaldılar.**



Böyük itkilərlə, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Sovet ordusunun xüsusi təyinatlı bölmələrinin və Daxili Qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Həmin vaxt Azərbaycan qonşu Ermənistanın da təcavüzünə məruz qalmışdı. Hərb maşınları heç kimə, heç nəyə məhəl qoymadan dinc əhalini güllə-baran etməyə başladı. Qaranlıq bağrını güllələrin, mərmilərin pozduğu həmin qanlı gecədə amansızcasına atəşə tutulan təcili yardım, yanğınsöndürən maşınlarında, sərnişin avtobuslarında, binaların bloklarında, qəzet köşklərində… qətlə yetirilən bakılılar və paytaxtın qonaqları idi. Azərbaycan xalqı 134 şəhid verdi, 700-dən çox adam yaralandı, 600 nəfər itkin düşdü. Həlak olanlar arasında uşaqlar, qadınlar, qocalar da var idi. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı.

Qanlı hadisələrin qarşısını almaq üçün heç bir iş görməyən respublika rəhbərliyi və müxalifət nümayəndəliyi xalqın ağrılarına biganə qaldı. Həmin gecə Ə.Vəzirov hərbi təyyarə ilə Moskvaya qaçdı.

1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, xalqın iradəsini, milli-azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar…

Bakıda müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər xiyabanıdır. Hər il yanvarın 20-də yüz minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir.

Nəsillər dəyişəcək, lakin Vətən övladlarının xatirəsi ürəklərdə əbədi yaşayacaq.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

**Azərbaycan dünyada "İdman ölkəsi" kimi tanınır. Bu bizim əldə etdiyimiz ən böyük nailiyyətlərdən biridir. Son illər dünyanın hansı qitəsində, ölkəsində keçirilməsindən asılı olmayaraq, bütün mötəbər idman yarışlarında, Olimpiya oyunlarında azərbaycanlı təmsilçilərin qələbələrini izləməyə, uğurlarına sevinməyə adət etmişik. İnamımızı hər zaman doğruldan idmançılarımızın ustalığı günü-gündən təkmilləşir və uğurları artır. Müasir və müstəqil Azərbaycanın qurucusu və memarı ulu öndərimiz Heydər Əliyevin strateji kursunu davam və inkişaf etdirən möhtərəm dövlət başçımız cənab İlham Əliyevin gənc idmançılara yaratdığı imkanlar qürurvericidir. Bu sırada DİN İdman Cəmiyyətinin yetirmələri də ulu öndərimizin və möhtərəm dövlət başçımızın daim diqqət və qayğısı ilə əhatə olunublar.**

# Bu qələbələr hamımızda qürur doğurur

Cinayətkarlıqla mübarizədə fədakarlıq göstərən, asayişi, sabitliyi qorumaq üçün gecəli-gündüzlü sayıq xidmət aparan, yeri gələndə silahlı şəxsləri tərksilah edən, yanğının, odun-alovun içindən insanları xilas edən polislərimizin bizə idman zəfərləri də bəxş etməsi xəbərləri hamımızda haqlı qürur doğurur.

2018-ci il ölkəmiz üçün idman sahəsində çox uğurlu il olduğu kimi, DİN İdman Cəmiyyəti üçün də böyük uğurlar, qələbə sevincləri ilə yadda qalıb. Daxili işlər orqanlarında idmanın inkişafına xüsusi diqqət göstərilməsi bu sahədə böyük nailiyyətlərin əldə edilməsi üçün geniş imkanlar yaradır. Dünya miqyaslı yarışlarda qurumun əməkdaşları böyük nailiyyətlər qazanmaqla Azərbaycanı yüksək səviyyədə təmsil edirlər.

***Ötən il DİN İdman Cəmiyyəti tərəfindən ölkə və beynəlxalq miqyaslı yarışlarda 253 medal qazanılıb. Onların 104-ü qızıl, 62-si gümüş, 87-si bürüncdür. Yeniyetmələrdən ibarət komanda 67, gənclər yığması 59 medal qazanıb. Qalan 127 medal isə böyüklərin payına düşür. Mükafatlardan 82-si beynəlxalq, 171-i isə respublika birinciliyi və çempionatlarında əldə edilib. Onlardan 30-u ölkənin milli komandalarının tərkibində Avropa və dünya çempionatlarında əldə olunub.***

Ötən il ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə, Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Polisinin yaranmasının 100 illik yubileylərinə, dövlət bayramlarına həsr olunmuş, həmçinin idmanın kütləviliyinin təmin edilməsi məqsədilə keçirilən yarışlara 800-dək idmançı qatılıb. Yarışlarda fərqlənmiş idmançılardan 35 nəfəri I dərəcə normativlərini doldurub. Bi neçə təmsilçimiz idman ustası adına layiq görülüb. Cəmiyyətin dörd əməkdaşı - "Fəxri bədən tərbiyəsi və idman işçisi", bir nəfər "Əməkdar məşqçi", bir nəfər isə "Əməkdar idman ustası" fəxri adlarına layiq görülüb. İdmançılardan iki nəfərə - Azərbaycan Respublikası Prezidenti tərəfindən yeni mənzillərin orderləri təqdim olunub. Ölkəmizdə idmanın inkişafı sahəsində göstərdikləri xidmətə görə əməkdaşların dövlət tərəfindən yüksək mükafatlara layiq görülməsi onları gələcəkdə daha böyük uğurlar qazanmağa həvəsləndirir.

Hazırda İdman Cəmiyyətinin Bakı, Gəncə, Sumqayıt, Şirvan şəhərləri üzrə regional qurumlarında idmanın 17 növü üzrə bölmələr fəaliyyət göstərir. Cüdo, boks, sərbəst güləş, yunan-Roma güləşi, taekvondo, bədii gimnastika, stend atıcılığı, güllə atıcılığı, atletika, atçılıq, karate, əlbəyaxa döyüş, kikboksinq, ciu-citsu, aykido, akrobatika, uşu-sanda üzrə idman bölmələrində yüzlərlə yeniyetmə və gənc məşğul olur.

Ötən ilin son günləri Cəmiyyətin təmsilçiləri və polis idmançılar üçün daha yadda qalan oldu. İdmanın Sərbəst və yunan-Roma güləşi, cüdo, karate, boks və digər növləri üzrə ölkə çempionatlarında təmsilçilərimiz yüksək nəticələr qazandılar. Qalib gələn idmançılarımız ölkəmizin milli yığmasının heyətinə düşməklə beynəlxalq yarışlarda Azərbaycanı təmsil etmək hüququ qazandılar.

Biz inanırıq ki, növbəti illərdə də idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etmək, hər zaman bayrağımızı yüksəldə dalğalandırıb himnimizi səsləndirmək üçün var qüvvələri ilə çalışacaqlar.

*Zeyni Hüseynov*

# BİR MƏKTUB, DAHA BİR GÖRÜŞ

**Ötən ilin son günlərində polisin daha bir insan həyatını qurtarması ilə bağlı Sumqayıt şəhər "Lift-Servis" Birliyindən ünvanlanan məktubu oxuyanda işimizə verilən qiymətin bir daha şahidi oldum. Deməli, "Elin gözü tərəzidir" kəlamı əbəs yerə deyilməyib.**



Fikrinizi çox da uzağa çəkmirəm və keçirəm məktuba: "Lift-Servis" Birliyinin Mərkəzi Dispetçer Xidmətinə axşam saatlarında təcili tibbi yardımdan ağır xəstənin liftdə qalması ilə bağlı məlumat daxil olmuşdur. Kömək üçün çağırışda olan növbətçi elektrik-mexanikə tapşırıq verilmişdir. O da dərhal işini dayandıraraq liftdə qalan xəstəyə köməyə tələsmişdir. Yol tıxac olduğundan əməkdaşımız yolda xidmət aparan polislərə durumu izah etmiş və onlardan kömək istəmişdir. Polislərin köməyi sayəsində xəstənin həyatını xilas etmək mümkün olmuşdur. Üzlərini görməsəm də adlarını eşitdiyim polis əməkdaşları-Sahib Əkbərova və Fikrət Məmmədova kollektivimiz adından təşəkkürümü bildirirəm."...

Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Əkbər İsmayılova həyat qurtaran polislərimiz barəsində yazı hazırlamaq fikrimizi deyəndə: "Bu ilk belə hadisə deyil, adı çəkilən əməkdaşlardan Sahib Əkbərov bir müddət öncə bir qadına qarşı quldurluq edən şəxsin yaxalanmasında da şücaət göstərib",- deməsi, marağımıza səbəb oldu...

Axtarıb tapdıq. Xidmətdə idilər. Qayda pozan sürücü ilə söhbətləri də diqqətimizdən yayınmadı və həmin sürücü: "Allah sizləri qorusun, siz olmasanız, yollarda çox hadisələr yaşanar",- deyərək avtomobilinə oturdu.

Bəlkə də çoxumuz bu mənzərənin şahidi olmuşuq. Ancaq mahiyyətinə varmadan, bəlkə də ürəyimizdə "suçlu polisdir" deyib keçmişik...

Biz yalnız, necə deyərlər, aysberqin görünən tərəfi ilə maraqlanırıq. Görünməyən tərəfini isə yaxınımız, doğmamız polis mundiri geyindikdən, polisin hansı əziyyətlərə qatlandığını gördükdən sonra görürük...

Düzü, bu məktubdan xəbərləri yox idi. Yəni onlar üzərlərinə düşəni etmişdilər, sonucda bir insan həyata, sağlamlığına və əzizlərinə qovuşmuşdu.

Dövlət Yol Polisi Şöbəsi Yol Patrul Xidmətinin əməkdaşı, **polis serjantı Sahib Əkbərov** 8 ildir ki, xidmətdədir. Bir müddət Post-Patrul Xidmətində çalışıb. Hazırda DİN-in Polis Akademiyasının 5-ci kurs dinləyicisidir. Hadisə ilə bağlı o da məktubda yazılanları danışdı.

**Polis serjantı Fikrət Məmmədov** da sözügedən xilasetmənin iştirakçısıdır. O 2013-cü ildən DİO-da xidmət edir. Xidmətə Post-Patruldan başlayıb.

"Yol polisi əməkdaşlarının həm də əsas işi maarifləndirməkdir. Çalışırıq ki, sürücülərlə ünsiyyətimizi qanunvericilik çərçivəsində quraq. Bəzən olur ki, onlara xırda qayda pozuntularına görə humanislik edirik. Avtomobili sərxoş vəziyyətdə və sənədsiz idarə edənlərə, sürət həddini aşanlara güzəşt edilmir. Çünki söhbət insan həyatından gedir. Sürücülərə bu sözü həmişə deyirik: Öz həyatını, özgənin həyatını və səni gözü yolda gözləyənləri düşün".

Bunları da bölüyünün **komandir müavini, polis kapitanı Rəşid Məcidov** dedi.

2003-cü ildən DİO-da xidmətdədir. Sumqayıtda Post-Patrulda Xidmət edib. Hər iki əməkdaş onunla birlikdə eyni xidmətdə olub və bu gün də yollarda insanların təhlükəsizliyini qoruyurlar.

Gəlişimiz həm də "Sumqayıt şəhər "Lift-Servis" Birliyinin kollektivinə sürpriz oldu. Sayəmizdə kollektivin əməkdaşları xilaskar polislərimizlə tanış oldular, xatirə şəkli çəkdirdilər...

*H.Təmirov,*
*polis mayoru*

**Konstitusiyamızın 42-ci maddəsində hər bir vətəndaşın təhsil almaq hüququnun olduğu, dövlətin pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin etdiyi müddəalar öz əksini tapır.**

XXI əsrdə də qız övladını "oxutmuram, əl çəkin"-; deyərək öz gününə salmaq istəyən, dünənə qədər sabirlərin, seyid əzimlərin, üzeyir bəylərin, mirzə fətəlilərin ürəklərini yara eləyən soydaşlarımızı haqq yola dəvət etmək üçün dili qabar bağlayan ziyalıların köməyinə yaxşı ki, dövlətin müxtəlif qurumları çatdı. Çünki vəziyyətin nəzarətdən çıxması daha ağır nəticələrə gətirib çıxara bilərdi. Ucqarlarda belə tikilən məktəblər təhsilə, elmə dövlətin dəstək verməsi, "qara qızılı" insan kapitalına çevirmək üçün atdığı önəmli addım idi.

Bəli, məktəblər tikildi. Təəssüf ki, həmin məktəblər "din buyurur ki, qız oxumasın, evdə otursun",- deyən mövhumatın qurbanı olanların ucbatından qızların üzünə həsrət qaldı. Elmin cinsi yoxdur və onu öyrənəni də kişiyə, qadına bölmək düşüncəsi ilə yaşayanlar öz övladının həyatını, gələcəyini məhv etməklə yanaşı, həm də dövlətə, xalqa hansı ziyanı vurduqlarının fərqində deyillər.

# KİTABDAN XOŞBƏXTLİYƏ AÇILAN QAPILAR

Sözü gedən problem təkcə məlum bölgədə deyil, paytaxtın bir addımlığındakı kəndlərində də yaşanır. Problemə nəzarət güclənsə də aradan qaldırılması mexanizmini işə salmaq üçün bu istiqamətdə maarifləndirmə tədbirlərinin keçirilməsi mütləqdir.

DİN rəhbərliyinin göstərişi ilə paytaxtda və yerlərdə narkomaniya, erkən nikah və dini radikalizmlə bağlı tədbirlərin mütəmadi keçirilməsinin vətəndaşlar tərəfindən təqdir olunması və müsbət qarşılanması oxucu məktublarında da öz əksini tapır. Gələcəyimizi təhdid edən bəlalar ictimaiyyəti narahat edir, həyacan təbili çalınır. Məqsədimiz hansısa qurumu fəaliyyətsizlikdə suçlamaq deyil.

Bizə gəlincə, polisin təşkilatçılığı ilə keçirilən maarifləndirmə tədbirlərinin hədəfi bəllidir: Dövlətin gələcək qarantı olan gəncliyi qorumaq.

Qeyd etdiyim mövzularda Sabunçu RPİ-nin kəndlərdə keçirdiyi tədbirlərin, demək olar ki, hər birində idarə rəisi, polis polkovniki Eldar İlyasovun üzünü onlara tutub: "Övladını erkən nikahın qurbanına çevirən valideyn sonradan onun üzləşdiyi bədbəxtliyi göröndə özünü təqsirli bilir, yoxsa "Allahın işidir, yazı, qismət",- deyib başını bulayır. Axı, islam dini də, müqəddəs kitabımız da cinsindən, irqindən asılı olmayaraq, hər kəsi oxumağa səsləyir. Görəsən, həmin valideyn istəməzmi ki, o xəstələnəndə, canı ağrıyanda qulluğunda, sağlamlığının keşiyində təhsilinə, məktəbə getməsinə şərait yaratdığı, oxutduğu həkim qızı dayansın",- deməsi, sözün əsl mənasında, həm də vətəndaş yanğısıdır.

Erkən nikah təkcə sosial bəla deyil, eləcə də talelərin məhvidir. Niyə talelərin? Çünki söhbət təkcə zorla erkən nikaha cəlb edilən qızcığazın yox, gələcəkdə onun dünyaya gətirdiyi övladın da taleyindən gedir. Cəhaləti, mövhumatı "qız oxumaz" şüarını əsrdən-əsrə çiynimizdə, beynimizdə daşımaqla qazancımız nə olacaq?

Erkən nikahın fəsadları barəsində onlarla belə misal gətirmək olar. Hörmətli həmkarımız Eldar İlyasovun danışdığı bu hadisə çox ibrətvericidir.

Deyir ki, bir xanım qızının itkin düşməsi ilə bağlı polisə müraciət etmişdi. Əməkdaşlarımız qızı qısa zaman kəsiyində tapdılar. Müvafiq araşdırmalardan sonra dəhşətli faktların üstü açıldı. Məlum oldu ki, qız narkomandı və bunun da baiskarı valideynləridir. Səbəb isə belədir: valideynləri həmin qızı erkən yaşında özündən 10-15 yaş böyük, həm də narkomana ərə veriblər. Bu nikahdan onların övladı dünyaya gəlib. Lakin həmin şəxs cinayət törədərək həbs olunub. Qız isə təkbaşına övladı ilə birlikdə can çəkişir…

Dinimizin buyurduğu həqiqətləri müqəddəs kitabımızda deyildiyi kimi çatdırmırıq. Bəlanın qarşısını almaq üçün valideyn, məktəb, millis, polis və din xadimlərimiz həmrəylik nümayiş etdirməli, qızlarımızın təhsil almaq hüquqlarını pozanların, ən əsası, mövhumatın önünə sədd çəkməlidirlər.

*T.Hafiz*

# QANUNSUZ DÖVRİYYƏDƏN ÇIXARILIB

## 117 kiloqrama yaxın narkotik vasitə

Respublikanın daxili işlər orqanları ümumən cinayətkarlığa, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini uğurla və qətiyyətlə davam etdirirlər.

Bu istiqamətdə həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində cari ilin təkcə 15 günü ərzində güclü təsiredici xüsusiyyətə malik, ümumi çəkisi 117 kiloqrama yaxın müxtəlif növ narkotik vasitə, o cümlədən 13 kiloqrama yaxın heroin, 7,2 kiloqram tiryək, 15,6 kiloqram həşiş və 81 kiloqramdan çox marixuana, həmçinin kultivasiya yolu ilə yetişdirilmiş 900-dən çox çətənə kolu götürülərək qanunsuz dövriyyədən çıxarılıb.

Saxlanılan şəxslər maddi sübutlarla birgə istintaqa təhvil veriliblər.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, zəruri istintaq və əməliyyat-axtarış tədbirləri aparılır.

*Natiq Cavadov*

# VETERANLARIN KÖMƏYİ İLƏ...

**DİN-in Veteranlar Şurası ərazi polis orqanlarının şəxsi heyəti ilə sıx təmasda olur, gənc əməkdaşlarla mütəmadi görüşür, onlara öz məsləhətlərini və tövsiyyələrini verirlər.**

2018-ci il ərzində veteranların köməyi ilə respublika üzrə 4491 cinayətin açılması təmin edilib ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 331 fakt (7,3 faiz) çoxdur.

Göstərilən dövr ərzində veteranlar 2 766 dəfə respublikanın müxtəlif təhsil müssisələrində (orta məktəblərdə, liseylərdə, kolleclərdə və s.), həmçinin ayrı-ayrı kollektivlərdə vətəndaşlar qarşısında çıxış edib, tövsiyələrini veriblər.

Polis veteranlarının səmərəli fəaliyyəti, digər ölkələrdəki həmkarları ilə dostluq əlaqələri, yaradıcılıq uğurları, elmi, bədii axtarışları öz layiqli qiymətini alır. Onlardan 155 nəfəri "Azərbaycan Polisinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı ilə, bir neçəsi DİN rəhbərliyi və Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr veteranları təşkilatı tərəfindən mükafatlandırılıb.

Bundan əlavə, istefada olan polis polkovniki Eldar Mirzəbəyov Moskva şəhəri üzrə BDİİ veteranlar təşkilatı tərəfindən "Moskva Cinayət Axtarışının 100 illiyi" xatirə nişanı ilə təltif olunub.

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov bildirir ki, cinayətkarlıqla mübarizədə əldə olunmuş uğurlarda elmi-texniki tərəqqinin ən son nailiyyətlərindən geniş istifadə edilməsi, profilaktiki işin səmərəsinin xeyli artırılması ilə yanaşı, heç şübhəsiz ki, polis-vətəndaş münasibətlərinin daha da dərinləşdirilməsi istiqamətində görülmüş işlərin böyük rolu olub. Qeydə alınmış cinayətlərin yarıdan çoxu məhz vətəndaşların kriminal hadisələr, yaxud hüquq pozuntuları barədə qabaqcadan polis orqanlarına məlumat verməları, ictimaiyyətin fəal nümayəndələrinin, cinayətkarlıqla mübarizədə böyük təcrübə qazanmış sabiq əməkdaşların- polis, prokurorluq və digər hüquq-mühafizə orqanları veteranlarının yaxından iştirakı ilə açılır.

Polis veteranları şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasına, gənc əməkdaşların peşə vərdişlərinin artırılmasına, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hissinin formalaşdırılmasına yönəlmiş tədbirləri daim diqqətdə saxlayır, bu yöndə görüşləri davam etdirirlər. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onların zərərli vərdişlərdən uzaq tutulması istiqamətində profilaktik xarakterli tədbirlərin həyata keçirilməsi başlıca fəaliyyət istiqamətlərindən biri kimi nəzərdə saxlanılıb.

Şuranın sədri deyir ki, qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində aparılan tədbirlər məqsədyönlü şəkildə davam etdirilir.

***Zeyni Hüseynov,***
***polis serjantı***

## DAXİLİ İŞLƏR NAZİRLİYİ
### SOSİAL ŞƏBƏKƏLƏRDƏ

Facebook
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.facebook.com/mia.gov.az/

Instagram
Adı- azerbaycan.din
Keçid linki- https://www.instagram.com/azerbaycan.din/

Twitter
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://twitter.com/MIAAzerbaijan

Youtube
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.youtube.com/channel/UCnOFln-vwFvkLMCMGyg2j-w/featured

# YARADILANLAR, YARADANLAR...

**Tarix boyu insan hər zaman nələrisə ixtira edib. Lakin bəzi ixtiraçılar buna erkən yaşlardan başlayıblar. Məhz belə balaca ixtiraçıların şərəfinə də hər il yanvarın 17-də Beynəlxalq Uşaq İxtirası Günü qeyd olunur.**



Maraqlıdır ki, bu tarix Benjamin Franklinin doğum günüdür. O, tarixdə ən görkəmli amerikalılardan biridir. B.Franklin həm dövlət xadimi, diplomat, həm alim, ixtiraçı, həm də jurnalist olub.

1718-ci ildə 12 yaşlı Benjamin balıq üzgəclərini xatırladan iki qəribə əşya ilə çimərliyə gəlir. Ətrafdakıların iztehzalı baxışlarına rəğmən o gün hamıdan daha sürətli üzür. Beləliklə, üzgüçülük üçün ilk gərəkli vasitə meydana çıxır.

Franklin 15 yaşında dünyaya növbəti bir yenilik – yellənən kreslonu bəxş edir. Bununla da onun doğum tarixi Uşaq İxtiraları Günü olaraq müəyyən edilir.

1824-cü ildə isə fransız çəkməçinin 15 yaşlı oğlu Lui Brayl görmə əngəlli insanlar üçün xüsusi şrift yaradır və bu şrift onun şərəfinə "Brayl şrifti" adlandırılır. Qeyd edək ki, Lui atasının emalatxanasında çəkməçi bıçağına ilişərək yıxılmış və 5 yaşında görmə qabiliyyətini itirmişdi. Lakin o, öz ixtirasının köməyi ilə oxumağı öyrənmiş, milyonlarla digər görmə əngəlli insanlara yardımçı olmuşdur.

Amerikalı Frenk Epperson qışda şaxtalı havada buz bağlamış 1 stəkan limonadın onu milyonçuya çevirəcəyini ağlına belə gətirməzdi. Səhər limonad buza çevrilir və beləliklə, 11 yaşlı Epperson "meyvəli buzun" ixtiraçısı olur. O ilk vaxtlarda öz ixtirasını kütləvi istehsalata çevirməyi düşünmür və onu yalnızca 18 ildən sonra, yəni 1923-cü ildə donmuş limonad istehsalı ilə məşğul olan zavodu yaratdıqda xatırlayır.

Amerika məktəblisi Cek Andraka 15 yaşında mədəaltı vəzin erkən mərhələdə xərçəng xəstəliyinin diaqnostikası üçün test-sistemin prototipini yaradıb. Bu test hazırda mövcud olanlardan 168 dəfə sürətli, analoqlarından 26 min dəfə ucuz, həm də 100 faiz dəqiqdir.

İlk dəfə plastilin, divar kağızları üçün yapışqan istehsal edən Kleo Makvikerin nəvəsinin sayəsində icad edilmişdir. Qızcığaz babasına oynamaq istədiyini dedikdə, K.Makviker ona lazımi əlavələr və rəng qatmış, zərərli maddələri isə xaric etmişdir.

Hər il 500 mindən çox uşaq və yeniyetmə müxtəlif kompyuter oyunları, robot və texnika yaradırlar. Onların sayı gələcəkdə nə qədər olacaq, məlum deyil.

***Ruhiyyə Əliyeva,***
***polis leytenantı***

# İNSAN ALVERİ İLƏ MÜBARİZƏ DÜNYANIN GÜNDƏMİNDƏ

**Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətlərlə Mübarizə İdarəsinin illik hesabatında bildirilir ki, insan alverinin qurbanları köməksiz insanlar, o cümlədən də uşaqlardır.**

Vyanada keçirilən narkotiklər və cinayətkarlıqla mübarizə üzrə Komissiyanın iclasında təqdim olunan hesabatda insan alveri qurbanlarının 30 faizinin azyaşlılar olduğu qeyd edilir. "Dünyanın bütün ölkələrində insan alveri artır, lakin bu hallar ən çox silahlı münaqişə zonalarında mövcuddur. Yaraqlılar və terrorçular öz sıralarını genişləndirmək və gəlir əldə etmək məqsədilə qadın və uşaq alveri ilə məşğuldurlar", - deyə sənəddə bildirilir.

Dünyanın 142 ölkəsindən daxil olan məlumatlar əsasında hazırlanan hesabatda o da vurğulanır ki, beynəlxalq təşkilatlar və hökumətlər insan alverinə, xüsusən silahlı münaqişə zonalarında qadın və uşaqların istismarına qarşı səyləri gücləndirməlidir.

"Azyaşlıların silahlı qruplaşmalara cəlb olunması, seksual kölәlik görünməmiş miqyasda artmaqdadır. Terrorçuların törətdikləri bu cinayətlər yerli əhalini qorxu altında saxlamaq, qadınları öz sıralarına cəlb etdikləri yeni yaraqlılara hədiyyə etmək məqsədi daşıyır", - deyə BMT-nin Narkotiklər və Cinayətlərlə Mübarizə İdarəsinin rəhbəri vurğulayıb. Onun sözlərinə görə, bu cür hallar cəzasızlıq mühitinin hökm sürdüyü silahlı münaqişə zonalarında daha geniş yayılıb.

Hesabat müəllifləri qeyd edirlər ki, insan alveri qurbanlarının 59 faizi seksual məqsədlə istismara məruz qalan qadınlardır. XXI əsrdə də insanların əmək istismarı məqsədilə kölə kimi satılması halları da çoxalıb. İnsan alveri dünyanın müxtəlif ölkələrində fərqli formalarda təzahür edir. Məsələn, 2018-ci ildə Cənub-Şərqi Asiya ölkələrində gəlin alveri, Mərkəzi və Cənubi Amerikada isə qanunsuz övladlığa verilməsi üçün oğlan uşaqlarının satılması halları artıb. Bundan başqa, Cənubi və Mərkəzi Avropa ölkələrində oğurlanan uşaqları cinayətkarlığa cəlb edirlər, Afrikanın şimalında və Şərqi Avropada isə insan orqanları alveri qurbanlarının sayı çoxalıb.

***C.Natiq***




Federal Təhqiqat Bürosu (FTB) cinayətkarları yaxalamaq üçün "Amazon" şirkətinin üz tanıma texnologiyasından ("Rekoqnişın") istifadə edir. Bunu FTB-nin Terrorla Mübarizə Şöbəsinin müdir müavini Kristin Halvorsen deyib. O, texnologiyanın terrorla mübarizə istintaqında effektiv nəticə verdiyini bildirib: "Həftə boyu bütün sutkanı işləyən agentlərimiz və analitiklərimiz var, amma işçilərimizin həftələrlə gördüyü işi "Rekoqnişın" 24 saatda görə bilir".

*****

***İspaniyada danışılmış oyunlarla bağlı ermənilərdən ibarət mütəşəkkil dəstə saxlanılıb. Açıqlamada tennis üzrə danışılmış matçların təşkilində şübhəli bilinən Ermənistandan olan 15 nəfərlik mütəşəkkil dəstənin zərərsizləşdirildiyi bildirilir. İdmançılar da daxil olmaqla, daha 68 nəfərlə bağlı araşdırma aparılır.***

***Dəstənin ən azı 2017-ci ilin fevralından fəaliyyət göstərdiyi qeyd olunur. Bildirilir ki, istintaq çərçivəsində İspaniyanın 9 əyalətində aparılan axtarışlar zamanı nağd şəkildə 167 min avro, bank kartları, tapança, bahalı maşınlar və zinət əşyaları müsadirə olunub. Həmçinin 42 bank hesabına və daşınmaz əmlaklara həbs qoyulub.***

*****

2018-ci ildə Türkiyədə qaçaqmalçılara qarşı 832 əməliyyat keçirilib. Bu əməliyyatlar çərçivəsində 2,194 min nəfər saxlanılıb, onlardan 317-si həbs olunub.

Ölkədə yanacaq, tarixi əşyalar və alkoqol qaçaqmalçılığı daha geniş yayılıb. 2018-ci ildə Türkiyədə gömrükçülər qaçaqmalçılardan 23 min mobil telefon, 20 min tarixi əşya, 8,817 kiloqram qızıl müsadirə ediblər.

Ötən il qanunsuz olaraq ölkəyə gətirilən və ya çıxarılan əşyaların ümumi dəyəri 69,9 milyon lirə olub.

*****

***Çində polisin keçirdiyi əməliyyat nəticəsində narkotik vasitələrin qaçaqmalçılığı ilə məşğul olan 2 nəfər həbs edilib. Onlardan ümumilikdə 350 kiloqram metamfetamin müsadirə edilib.***

***Polisə həmin şəxslərin Myanmadan Çinə narkotik vasitələr gətirmələri barədə məlumat daxil olub. Narkotacirlər növbəti sövdələşmə zamanı həbs edilib.***

*****

2018-ci ilin yayında Səudiyyə Ərəbistanında qadınlara sürücülük hüququ verməyi nəzərdə tutan fərman qüvvəyə minib. Həmçinin qadınlar ölkənin silahlı qüvvələrində iştirak etmək və futbol oyunları zamanı stadionlara getmək hüququ qazanıblar.

Səudiyyə Ərəbistanında 40 mindən çox qadın onlara avtomobil sürməyə icazə verən qanunun qüvvəyə minməsindən sonra sürücülük vəsiqəsi alıb. Hökumət ölkənin müxtəlif rayonlarında qadınlara sürücülük öyrətmək üçün 14 yeni mərkəz açmaq niyyətindədir.

*****

***Beynəlxalq Kosmos Stansiyasında çalışan astronavtlardan biri səhvən polisə zəng edib. İşə rəsmilər qarışdıqdan sonra zəngin səhvən edildiyi üzə çıxıb.***

***Qeyd edək ki, astronavtlar kosmosdan yerə zənglər üçün öncə 9, beynəlxalq zənglər üçün isə ardınca 011 kodunu yığmalıdırlar. Lakin astronavt səhvən 911 nömrəsini yığaraq polis mərkəzinə zəng vurub.***

***Natiq Cavadov,***
***polis kapitanı***

# Yanvarın 9-dan 15-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 853 cinayət qeydə alınmış, onların 168-i «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 65 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 108 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 3 nəfər, borclu şəxs qismində axtarışda olan 50 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 18 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 10 nəfər ölmüş, 33 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 100 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 236 nəfər saxlanılmışdır.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Qazax RPŞ-nin rəisi Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İlham Babayev, Çingiz Şıxverdiyev, Hafiz Təmirov Gəncə ŞBPİ-nin şəxsi heyət üzrə rəis köməkçisi Əjdər İsgəndərova əmisi

**ŞAHMAR kişinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanov və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Quba RPŞ-nin rəisi Süleyman Neymətov və şəxsi heyəti Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Azər Cahangirova anası

**LAÇIN xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qazax RPŞ-nin şəxsi heyəti Şöbə rəisi Ədalət Əliyevə anası

**ZEYNƏB xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.714

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 16:30